İsfəhan **Qaimiyyə** kompüter
araşdırmalar mərkəzi

# Qaimiyyə




www.Ghaemiyeh.com
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.ir

# Ayətullah əl-üzma Hacı seyid Məhəmmədəli Ələvi Hüseyni Qorqani cənablarının həyatına qısa baxış

بسم الله الرحمن الرحیم

Ayətullah əl–üzma Hacı seyid Məhəmmədəli Ələvi Hüseyni Qorqani

:Müəllif

Ayətullah əl–üzma seyid Məhəmmədəli Ələvi Hüseyni Qorqani

:Çap nəşriyyat

Fəqihe Əhli–beyt

:Digital nəşriyyat

İsfəhan Qaimiyyə adına komputer araşdırmalar mərkəzi

# Mündəricat


Mündəricat ۵
Ayətullah əl-üzma Hacı seyid Məhəmmədəli Ələvi Hüseyni Qorqani ۶
point ۶
point ۶
Ön söz ۱۰
Alimlərin fəzilətləri haqda bir neçə ayə və hədis ۱۲
Ailəsi və əsl nəcabəti ۱۴
Təvəllüdü ۱۹
Düzgün yuxu ۱۹
Təhsil dövrü ۲۰
Ustadları ۲۲
Tədrisi ۲۳
Dini təbliğləri ۲۵
Tədris üslubu ۲۷
Elmi məqamı، Mərcəiyyəti ۲۹
Əsərləri ۳۰
Çap olunmuş əsərləri ۳۰
Çap olunmamış əsərləri ۳۱
İctimai xidmətləri ۳۳
Mündəricat ۳۵
Haqqında mərkəzi ۳۶

**Ayətullah əl–üzma Hacı seyid Məhəmmədəli Ələvi Hüseyni Qorqani**

**point**

Kitabın adı.......................Ayətullah əl-üzma hacı seyid Məhəmmədəli Ələvi Hüseyni Qorqani cənablarının həyatına qısa baxış

Tərcümə etdi.........Hacı Tərlan Seyfullayev

Naşir................................Fəqihe-Əhli-beyt

Çap növbəsi....................................Birinci

Tiraj.................................................۳۰۰۰

Tarix...............................................۲۰۱۲

səh: ۱

**point**

Ayətullah əl-üzma Hacı seyid Məhəmmədəli Ələvi Hüseyni Qorqani

cənablarının həyatına

qısa baxış

Tərcümə etdi: Hacı Tərlan Seyfullayev

بسم الله الرحمن الرحيم

BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

Müasir dövrdə şiə fiqhinin görkəmli mərcəi-təqlidlərindən biri də Ayətullah əl-üzma .seyid Ələvi Qorqani cənablarıdır

Bu kitabça onun tələbələrinin birinin vasitəsi ilə qələmə alınmışdır. Kitabça alimin şəxsi, .ictimai,elmi həyatından və onun xidmətlərindən bəhs edir

Ümüd edirik ki, kitabça Əhli-beyt məktəbinin ardıcıllarının, bu məktəbi sevənlərin və .islam elmlərini himayə edən şəxslərin diqqətini cəlb etsin

## Ön söz

Tarix bizə göstərir ki, böyük şəxsiyyətlər həməşə insanların hidayətləri üçün çalışıblar və bu yolda heç bir şeyi əsirgəməyiblər. Hətta tamam ömrlərini bu yola sərf ediblər. Bu hidayət qafiləsinin başında peyğəmbərlər və onların vəsiləri dayanırlar. Əgər tarixə baxsaq görərik ki, onlar insanların hidayətində həməşə birinci olublar. Onlar .bəşəriyyəti düşnməyə və imana dəvət ediblər

Dini alimlər onların ardıcıllarıdırlar. İlahi peyğəmbərlər və onların vəsiləri kimi, bəşəriyyətin hidayəti yolunda və fəsad, dinsizlik və cəhllə mübarizəyə qalxırlar. Hidayət çırağını əllərinə alıb həyatın yenişli- yoxuşlu yolarını və onun qaranılqarını .bəşəriyyət üçün işıqlandırırlar

,(Həqiqətən onlar, əl-üləmau vərəsətul-ənbiya(١

(əl-füqəhau ümənaur-rəsul(٢

(və əl-mominunə əl-füqəhau husunul-islam-ın(٣

.aşkar nümunələridirlər

Onlar peyğəmbərlərin yollarını davam etdirmədə bütün güclərindən istifadə edirlər və .bu yolun çətinliklərindən qorxmurlar



---

.Alimlər Peyğəmbərlərin vərəsələridirlər -١

.Fəqihlər Peyğmbərlərin əminləridirlər -٢

.Fəqihlər İslam dininin qalasıdırlar -٣

Həmd və səna olsun o, Allaha ki, onlar (alimlər) həməşə nur saçdılar, nur saçırlar, nur saçacaq və hidayət edəcəklər. Həmd və səna olsun o, Allaha ki, onların birinin ömürünün başa çatması ilə digərini onun məqamına çatdırır. Ən məsuliyyətli olan vəzifəni (halal və haram hökmlərini) insanlara çatdırmaq vəzifəsini onun öhdəsinə qoyur. Allah-taala müqəddəs kitabımız Qurani-kərimdə buyurur:

مَا نَنسَخْ مِنْ آيَةٍ أَوْ نُنسِهَا نَأْتِ بِخَيْرٍ مِّنْهَا أَوْ مِثْلِهَا أَلَمْ تَعْلَمْ أَنَّ اللّهَ عَلَىَ كُلِّ شَيْءٍ قَدِيرٌ

Biz (zaman, məkan və şəraitin tələbinə görə) hər hansı bir ayəni (ayənin hökmünü) ləğv edir və ya onu təxirə salırıqsa, ondan daha yaxşısını, yaxud ona bənzərini gətiririk. Allahın hər şeyə qadir olmasını bilmirsənmi?!(۱)

Qum və Nəcəfi-əşrəf elmi hövzələrinin böyük mərcəi-təqlidlərinin qəmli və kədərli vəfatlarından sonra indi onları əvəz edən alimlərin və fəqihlərin şahidiyik. Bu alimlərdən biri də Ayətullah əl-üzma hacı seyid Məhəmmədəli Ələvi Hüseyni Qorqani cənablarıdır.



---

۱- Bəqərə surəsi, ayə ۱۰۶.

## Alimlərin fəzilətləri haqda bir neçə ayə və hədis

إِنَّمَا يَخْشَى اللَّهَ مِنْ عِبَادِهِ الْعُلَمَاء

Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar. (Onlar elm sahibi olduqları üçün Allahın vəhdaniyyətini, heybət və əzəmətini daha yaxşı başa düşür və Ondan daha çox (qorxurlar).(١)

يَرْفَعِ اللَّهُ الَّذِينَ آمَنُوا مِنكُمْ وَالَّذِينَ أُوتُوا الْعِلْمَ دَرَجَاتٍ

Ey iman gətirənlər! Sizə: "Məclislərdə (mömin qardaşlarınıza) yer verin!"–deyildiyi zaman (onlara) yer verin ki, Allah da sizə (Cənnətdə) geniş yer versin. Eləcə də sizə: "Qalxın!" deyildikdə qalxın ki, Allah da sizdən iman gətirənlərin və (xüsusilə) elm bəxş (edilmiş kimsələrin dərəcələrini ucaltsın. Allah etdiyiniz əməllərdən xəbərdardır!(٢)

قُلْ هَلْ يَسْتَوِي الَّذِينَ يَعْلَمُونَ وَالَّذِينَ لَا يَعْلَمُونَ إِنَّمَا يَتَذَكَّرُ أُوْلُوا الْأَلْبَابِ

De: "Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?! (Allahın



---

١- Fatir surəsi, ayə ٢٨.

٢- Mücadilə surəsi, ayə ١١.

(ayələrindən, dəlillərindən) yalnız ağıl sahibləri ibrət alar!” (١)

Əziz islam peyğəmbəri həzrət Mühəmməd (səlləllahu ələyhi və alihi və səlləm) və onun məsum Əhli-beytindən (ələyhimus-səlam) bu barədə çoxlu hədis və rəvayətlər nəql olunub. Burada o hədislərdən bir neçəsinə işarə etməklə kifayətlənirik.

عن ابى عبد الله الصادق عليه السلام قال: قال رسول الله (ص) و فضل العالم على العابد كفضل القمر على سائر النجوم ليلهالبدر، و ان العلماء ورثه الانبياء

Həzrət Mühəmməd peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) buyurmuşdur:

Alimin abiddən üstünlüyü on dörd gecəlik ayın ulduzdan üstünlüyü kimidir və onlar peyğəmbərlərin varisləridirlər.(٢)

عن ابى جعفر الباقر عليه السلام قال: عالم ينتفع بعلمه افضل من سبعين عابد.

İmam Mühəmməd Baqir (ələyhis-səlam) buyurub:



---

١- Zumər surəsi, ayə ٩.
٢- Üsuli-kafi, cild ١, “Elm öyrənməyin və alimin savabı” bölməsi.

(Öz elmi ilə fayda verən alim yetmiş abiddən üstündür.(١

عن ابى عبد الله الصادق عليه السلام قال: اذا اراد الله بعبد خيرا فقهه فى الدين.

İmam Sadiq (ələyhis-səlam) buyurub: Allah-taala bir bəndənin xeyrini istəyərsə onu dində fəqih və alim edər.(٢)

### Ailəsi və əsl nəcabəti

Ayətullah əl-üzma hacı seyid Məhəmmədəli Ələvi Hüseyni Qorqani cənablarının atası Ayətullah hacı seyid Səccad Ələvi Gorgai (Allah ona rəhmət etsin) Gorgan və Dəşt məntəqəsinin eləcədə Mazandaran bölgəsinin görkəmli alimi idi. O, qəməri tarixi ilə ١٣٢٢-ci ildə Gorganın Ələng kəndində seyid Qasim ağanın evində dünyaya göz açdı. Seyid Qasim ağa həməşə zikr edən, dindar və mömin insan idi. O, altımış beş yaşına çatmışdı amma oğul övladı yoxu idi. Nəhayət altımış beş yaşında çoxlu dualar və zikirlərin vasitəsi ilə Allah-taala ona oğul övladı verdi və bir neçə ildən



---

١- Üsuli-kafi, cild ١, "Elmin fəziləti" bölməsi.

٢- Üsuli-kafi, cild ١, "Elmin fəziləti" bölməsi.

sonra seyid Qasim ağa dünyasını dəyişdi. O, yetkinlik yaşında ikən anasını itirdi. Sonra Ayətullah hacı molla Mühəmməd Haşim Kəbir Kordkuyi (Allah ona rəhmət etsin) onun sərpərəsliyini öhdəsinə götürdü. Müqəddimə dərslərini, ədəbiyyat və bir neçə dini elimləri ondan öyrəndi. ۱۳۴۴-cü ildə müqəddəs Məşhəd şəhərinə köçdü orada Ayətullah mirzə Məhdi İsfəhani, molla Haşim Xorasani, Fazil Bəstami, birinci ədib Nişaburidən ali səth dərslərini öyrəndi. Qəməri tarixi ilə ۱۳۴۷-ci ildə Qum elmi hövzəsinə hicrət etdi. Ayətullah əl-üzma hacı şeyx Əbdul-Kərim Hairi Yəzdi, hacı şeyx Məhəmmədəli Hairi Qumi, hacı mirzə Mühəmməd Feyzi Qumi, hacı şeyx Əbul-Qasim Qumi, mirzə Mühəmməd Əli Şahabadi və mirzə Mühəmməd Sabiti Həmədanidən (Allah onlara rəhmət etsin) fiqh, üsul, fəlsəfə və kəlam dərslərini öyrəndi. Qəməri tarixi ilə ۱۳۵۳-cü ildə ustadı Ayətullah Hairi Yəzdinin məsləhəti ilə Nəcəfi-əşrəf şəhərinə getdi. Orada Ayətullah seyid Əbul-Həsən İsfəhani, şeyx Mühəmməd Kazim Şirazi, mühəqqiq İsfəhani və ağa Ziya İraqinin dərslərindən bəhrələndi. Ayətullah seyid Əbul-Həsən İsfəhani ona çox əhəmiyyət verər və hörmət edərdi. O, ali səth dərslərini orada tədris

etməyə başladı. Onun şagirdlərindən bir neçəsinin adını burada qeyd edirik. Ayətullah əl-üzma hacı şeyx Əli Mühəmməd Burucerdinin oğlanları şeyx Mühəmməd İbrahim və şəhid şeyx Mürtəza Burucerdi. Hacı şeyx Abbas Quminin oğlanları hacı mirzə Əli Muhəddiszadə və hacı mirzə Möhsin Muhəddiszadə. Bunlardan əlavə mərhum şəhid Nəvvab Səfəvini qeyd etmək olar. On iki il Nəcəfi-əşrəfdə yaşadıqdan sonra Gorgan camaatı Ayətullah seyid Əbul-Həsən İsfəhanidən Ayətullah seyid Səccad Qorqani cənablarını İrana yollamasını xahiş etdilər. Ayətullah seyid Səccad Qorqani cənabları qəməri tarixi ilə ۱۳۶۵-ci ildə İrana yollandı və Qum şəhərində məskunlaşdıqdan sonra Qum elmi hövzəsində fiqh və üsul elmlərinin ali səth dərslərinin tədrisinə başladı. .Mərhum Ayətullah hacı Şəhab Əşraqi onun tələbələrindən olubdur

Bir müddətdən sonra Gorganın dindar və mömin camaatı Ayətullah əl-üzma Burucerdidən Ayətullah seyid Səccd Qorqani cənablarını Gorgana göndərməsini xahiş edirlər. Qəməri tarixi ilə ۱۳۶۶-cı ildə Ayətullah seyid Səccad Qorqani cənabları Gorgana qayıtdı Came məscidində imam camaat və dinin təbliğinə, İmadiyyə

mədrəsəsində isə dini elimlərin tədrisinə məşğul oldu. Oradakı şagirdlərindən mərhum Mühəmməd Təqi Daneşpejuh, Tahiri Qorqani, Cənnati Şahrudinin adlarını qeyd etmək olar. Ayətullah seyid Səccad Qorqani cənabları o, məntəqədə iki yüzə yaxın hüseyniyyə, məscid və imamzadələrin hərəmlərini təsis və təmir etmişdir. Dörd dövrə .müqəddəs kitabımız Quranı-kərimi kamil şəkildə təfsir etmişdir

Ayətullah seyid Səccad Qorqani cənabları imkansız şəxslərə xidmət və kömək etməkdə və onların problemlərini həll etməkdə çox çalışardı. Onun gözəl əxlaq, təqva və elminə görə həmçinin gözəl moizə və söhbətlərinə görə o məntəqənin şiə və sünni camaatının arasında böyük hörəmətə sahib idi. Ayətullah seyid Səccad Qorqani (qəməri tarixi ilə ۱۴۰۷-ci ildə dünyasını dəyişdi.(۱

Onun övladları: Ayətullah əl-üzma seyid Ələvi Qorqani, Höccətül-islam hacı seyid .Mühəmməd Həsən, Höccətül-islam hacı seyid Mühəmməd Hüseyn Ələvidir



---

Asarul-hoccəh, cild ۲, səh ۳۴۲; Gəncineye daneşməndan, cild ۶, səh ۴۱۳-۴۱۵; Ayineye -۱ .daneşvəran, səh ۲۷۲; Məscid jurnalı, nömrə ۳۵, səh ۸۲-۸۷

Yeznələri: Ayətullah hacı seyid Həbibullah Tahiri Qorqani və hacı seyid Həsən Sibt .Əhmədi

.Anası: Mərhum şeyx Əliəsğər Muəyyiduş-şəriənin qızıdır

Burada qısada olsa Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənablarının qaynatası haqqında da məlumat vermək istəyirik. Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənablarının qaynatası mərhum Höccətul-islam vəl-müslimin hacı şeyx Məhəmmədəli Ənsari Qumi (qəməri tarixi ilə ١٣٢٨-ci ildə dünyaya göz açmış ١٤٠٥-ci ildə dünyasını dəyişmişdir). O, Qum şəhərində məşhur ədəbiyyatçı olubdur. O, Nəhcül-bəlağə kitabına şərh yazıb və Əhli-beyt (ələyhimus-səlam) şairi olmuşdur. O, Əhli-beyt .haqqında (ələyhimus-səlam) müxtəlif kitablar yazmışdır

Ayətullah hacı şeyx Mürtəza, hacı şeyx Əhməd və hacı şeyx Məhmud Ənsari mərhum Höccətul-islam vəl-müslimin hacı şeyx Məhəmmədəli Ənsari Quminin qardaşlarıdırlar. .Onlar Qum və Nəcəf elmi hövzəsinin görkəmli xətib və alimlərindən olublar

## Təvəllüdü

Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənabları qəməri tarixi ilə ۱۳۵۹-cu, şəmsi tarixi ilə isə ۱۳۱۸-ci ildə həzrəti Fatimənin (səlamullahi ələyha) dünyaya gəldiyi gündə Nəcəfi-əşrəf şəhərində elm, fəzilət və təqva ailəsində dünyaya göz açmışdır.

Bu uşağın dünyaya gəlməsi atasının sevincinə səbəb oldu. Çünki bu uşaq dünyaya gələnə qədər onun bir neçə oğlu dünyaya gəlmişdi və uşaqlıq çağlarında dünyalarını dəyişmişdilər. Elə buna (oğlanlarının dünyalarını dəyişdiyinə) görə o, həzrəti Əliyə (ələyhis-səlam) təvəssül edib və ondan alim və saleh əməl sahibi olan övlad istəyir.

## Düzgün yuxu

Ayətullah hacı seyid Səccad Ələvi (Allah ona rəhmət etsin) bir gecə yuxuda həzrət Əlinin (ələyhis-səlam) hüzuruna gedir. Həzrət Əli (ələyhis-səlam) tezliklə onun oğlunun dünyaya gələcəyini ona müjdə verir və ona deyir oğlunun adını Əli qoyarsan.

Uşaq dünyaya gələndən sonra atası savaba riayət etmək üçün onun adını Mühəmməd .və həzrət Əliyə (əleyhis-səlam) verdiyi sözə görə Əli qoyur

Atası dəfələrlə ona deyərdi Məhəmmədəli! Sən digər qardaşlarından fərqlənəcəksən, gələcəkdə böyük məqamlara yüksələcəksən. Çünki mən səni həzrət Əliyə (əleyhis-səlam) təvəssül etməklə Allahdan almışam.

Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənabları ata-anasının yanında boya-boşa .çatdı. Yazmaq, oxumaq və bir çox dini məsələləri öz atasından öyrəndi

## Təhsil dövrü

Ayətullah əl-üzma hacı seyid Məhəmmədəli Ələvi Hüseyni Qorqani cənabları qəməri tarixi ilə ۱۳۶۵-ci ildə yeddi yaşındaykən atası ilə İrana qayıtdı. Atasından Quran qiraəti, Nəsəb şünasi, Hesab, Gülüstan və bunlardan sonra ərəb qıramatikasını öyrəndi. O, əvvəl ədəbiyyat, Muğni, Mutəvvəl və Lumə kitabının bir hissəsini atasından dərs aldı. Qəməri tarixi ilə ۱۳۷۴-cü ildə on altı yaşındaykən atası və şəhərlərindən bir dəstə -camaatla Ətəbətu

aliat, Beytullahil-həram, Beytul-müqəddəs və Şamat ziyarətlərinə gedir. Ayətullah əl-üzma seyid Ələvi Qorqani yol boyu ziyarətçilər üçün şəri hökmlərini deyir və onlar üçün kitab oxuyardı. Həcc səfərindən qayıdarkən Nəcəfi-əşrəf şəhərində qalıb orada təhsilini davam etdirmək fikrinə düşür. Mərhum Ayətullah əl-üzma Həkim (Allah ona rəhmət etsin) Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənablarının atası ilə görüşməyə gələndə onun məqsədini başa düşür. O, Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənablarının atasına deyir: Əgər o, Qum elmi hövzəsində təhsilə məşğul olsa daha yaxşıdır. Çünki Qum elmi hövzəsinin iki üstünlüyü var. Tədris etmək və minbərə getmək fənləri. Hər kim o hövzədə təhsil alsa hər ikisinə yiyələnəcək. O, dərs .oxuyacaq, dərs verəcək və təbliğ edəcək

O, Ayətullah əl-üzma Həkimin (Allah ona rəhmət etsin) məsləhətinə görə Qum elmi hövzəsinə yollanır və böyük ustadların hüzurunda təhsilə məşğul olur. Onlardan Ayətullah Mucahidi Təbrizi, Ayətullah Sultani Təbatəbai və Ayətullah Sutudə Ərakini (Allah onlara rəhmət etsin) qeyd etmək olar. Ayətullah əl-üzma hacı seyid Məhəmmədəli Ələvi Hüseyni Qorqani cənabları onların hüzurunda dörd il təhsilə

.(məşğul oldu. (Bu az bir zaman onu çatdırır ki, o böyük istedada malikdir

**Ustadları**

Ayətullah əl-üzma hacı seyid Məhəmmədəli Ələvi Hüseyni Qorqani cənabları o dövrün görkəmli və tanınmış fəqihlərinin dərslərində iştirak edirdi. Burada onlardan bəzilərinə .işarə edirik

Ayətullah əl-üzma Burucerdi (Allah ona rəhmət etsin). Üç il onun "Fiqh" dərsində-۱ .iştirak etmişdir

Ayətullah əl-üzma imam Xumeyni (Allah ona rəhmət etsin). Səkkiz il onun "Üsul"-۲ .dərsində iştirak etmişdir

Ayətullah seyid Mühəmməd mühəqqiq Əhmədabadi (Allah ona rəhmət etsin). On iki-۳ .il onun "Fiqh və Üsul" dərslərində iştirak etmişdir

.(Ayətullah əl-üzma seyid Mühəmmədrza Musəvi Golpayqani (Allah ona rəhmət etsin-۴

.(Ayətullah hacı şeyx Abbasəli Şahrudi (Allah ona rəhmət etsin-۵

.(Ayətullah hacı şeyx Məhəmmədəli Əraki (Allah ona rəhmət etsin-۶

Ayətullah hacı Mürtəza Hairi Yəzdi (Allah ona rəhmət etsin). On beş il onun “Fiqh”-٧ .dərsində iştirak etmişdir

Həmçinin yay mövsümündə Qum elmi hövzəsi tətil olan vaxt Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənabları yeddi il Nəcəfui-əşrəf şəhərinə gedir və Ətəbati-aliatın ziyarətindən əlavə Nəcəfi-əşrəf şəhərində olan görkəmli alimlərin dərsində iştirak .edirdi. Onlardan bir neçəsinin adını burada qeyd edirik

Ayətullah əl-üzma imam Xumeyni, Ayətullah əl-üzma Xoi, Ayətullah əl-üzma Şahrudi .(və Ayətullah əl-üzma mirəzə Baqir Zəncanini (Allah onlara rəhmət etsin

**Tədrisi**

Ayətullah əl-üzma hacı seyid Məhəmmədəli Ələvi Hüseyni Qorqani cənabları mübarək və bərəkətli ömrünü təlif, tədris və dinin təbliği yolunda keçirir. O, tələbəliyinin ilk illərindən ədəbiyyat və səth dərslərinin tədrisinə məşğul olub. Şəmsi tarixi ilə ١٣٣٤-cü ildə dəfələrlə Süyuti, Muğni, Mutəvvəl, Şərhi Şəmsiyyə və Şərhi Nizam kitablarını tədris emişdir. On altı

.yaşında ikən “Kəşful-ğaşiyə ən vəchil haşiyə” adlı kitabı yazmışdır

Qəməri tarixi ilə ۱۳۸۲-ci ildən səth (Məalim, Qəvanin, şərhi Lumə və Şərh Təcrid) və ali səth dərslərinin ( Rəsail, Məkasib, Kifayə və şərhi Mənzumə) tədrisinə başlamışdır. O, bəzi günlər dörd dərs tədris edərdi. Onun dərsləri Qum elmi hövzəsində seçilmiş dərslərdən idi. Qum elmi hövzənin tarixçilərindən biri otuz il bundan qabaq şəmsi tarixi :ilə ۱۳۵۰-ci ildə onun haqqında belə yazıb

Ayətullah əl-üzma hacı seyid Məhəmmədəli Ələvi Hüseyni Qorqani cənabları elmi hövzənin ali səthinin dərslərini tədris edən ustadlardandır. O, elm, təqva və fəzilətlərlə (bəzənib.(۱

Ayətullah əl-üzma hacı seyid Məhəmmədəli Ələvi Hüseyni Qorqani cənabları qəməri tarixi ilə ۱۴۰۵-ci ildə bir dəstə tələbələrin istək və xaişi ilə fiqh elminin dərsi xaricini Əbul-Qasim Nəcmuddin Cəfər mühəqqiq Hillinin “Şəraeyi-islam” adlı kitabının əsasənda başladı. Taharət, zəkat kitablarını tamamlayıb hal-hazırda səlat kitabını tədris



---

Gəncineyi danişməndan, cild ۲, səh ۲۰۶, Şərif Razi; Əxtərane tabnak, cild ۲, səh ۱۹۶, -۱ .Məhəllati

edir. Eyni zamanda Üsul elminin dərsi xaricini Kifayətul-üsul kitabının əsasənda başlamışdı. Bu kitabın dərsi xaricini bir dövrə kamil şəkildə tədris edib. Bu kitabın dərsi xaricini bir dövrə tədris etmək on beş il vaxt tutub. Hal-hazırda ikinci dövrəni tədris edir. Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənabları qırx illik tədrisi dövründə saysız alimlər yetişdirib. Onun tələbələrindən bir çoxu hal-hazırda müxtəlif şəhərlərdə və müxtəlif vəzifələrdə fəaliyyət göstərirlər. Onun tələbələrindən bəziləri hövzədə, universitetlərdə tədris edirlər. Bəziləri imam camaat, qazi və milli məclisdə fəaliyyət .göstərirlər

## Dini təbliğləri

Müqəddəs kitabımız Qurani-kərim fəqihlərin və dini alimlərin vəzifələrindən birini də .insanları Allahın əzabından qorxudub və Allah-taalanın dinini onlara çatdırmağı bildirir

فَلَوْلاَ نَفَرَ مِن كُلِّ فِرْقَةٍ مِّنْهُمْ طَآئِفَةٌ لِّيَتَفَقَّهُواْ فِى الدِّينِ وَلِيُنذِرُواْ قَوْمَهُمْ إِذَا رَجَعُواْ إِلَيْهِمْ لَعَلَّهُمْ يَحْذَرُونَ

Barı, hər tayfadan bir dəstə (elm öyrənmək, sonra da onu dindaşlarına

öyrətmək üçün) qalsın ki, camaatı qayıtdığı zaman onları (Allahın əzabı ilə) qorxutsun. Bəlkə, onlar (əldə etdikləri biliklər sayəsində yaramaz işlərdən, nalayiq hərəkətlərdən) (çəkinsinlər!(١)

Bu ayə bütün alimlərin vəzifəsini təyin edib. Bu vəzifə də insanların öhdələrində onan .təkliflərini onlara öyrətməkdir

Ayətullah əl-üzma seyid Əlvi Qorqani cənabları öz vəzifəsinə əməl etmək üçün tələbəliyinin ilk dövrlərindən dini təbliğ etməyə başlamışdır. Uzun illər Ramazan, Məhərrəm və Səfər aylarında öz gözəl söhbətləri ilə Əhli-beyt (ələyhimus-səlam) aşiqlərini feyziyab edirdi. Hətta mərcəiyyət məqamına çatandan sonra da bu .vəzifəsinə əml edir

Qeyd etdiyimiz aylardan başqa vaxtlarda mərcəiyyət məqamına çatmazdan qabaq on səkkiz il ardıcıl isti və soyuq havalarda, yayda və qışda dördüncü və beşinci günlər Tehran şəhərinə gedər və Fatimiyyə məscidində tədris edərdi. O zamanlar Fatimiyyə məscidində xeyriyyə fondunu və məscidin heyyətini təsis etdi. O zamanlar universitet müllimləri və tələbələri üçün



---

.Tövbə surəsi, ayə١٢٢ -١

.Şərhi Mənzumə, Şərh Təcrid və əqaid dərslərini tədris edirdi

### Tədris üslubu

Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənabları fəqihlərin nəzərlərini, fiqhə aid olan hədisləri, bir-birlərinə zid olan rəvayətləri həll etməkdə və hədisin ravilərini araşdırmaqda xüsusi bir istedada malikdir. O, Mirzaye Quminin "Ğənaimul-əyyəm", Molla İsmail Əqili Nurinin "Vəsilətul-məad", Ayətullah Xansarinin "Camiul-mədarik" kitablarına və digər kitablara müraciət edir sonra bunların nəzərlərinin arasından bir nəzəri seçir (və ya özü yeni bir nəzər irəli sürür). Onun seçdiyi nəzər bəzən digər fəqihlərin nəzərləri ilə üst-üstə düşür bəzi vaxtlar isə digər fəqihlərin nəzərlərindən fərqli olur. O, həməşə dərsin əvvəlində tədris etdiyi yerdə hazır olur və tətil günlərini çıxmaq şərti ilə heç vaxt dərslərini tətil etmir. Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənabları hər üçüncü günlər həzrət Peyğəmbərin hədislərindən birini şərh edir. Əgər üçüncü gün buraxılış olarsa həmin hədisi ikinci gün şərh edir. O, bu işi ilə istəyir tədris etdiyi hədislərin

arasında fasilə olmasın. Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənabları bu yolla indiyə qədər həzrət Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) həzrət Əmirəl-mömininə (ələyhis-səlam), Əbuzər Ğəffari və Abdullah ibni Məsuda (Allah onlara rəhmət etsin) etdiyi vəsiyyətlərini şərh etmişdir. Hal-hazırda həzrət Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) Əbuzər Ğəffariyə (Allah ona rəhmət etsin) etdiyi .vəsiyyətlərinin şərhi Ənvari əxlaqi "Rəhe tuşeye parsayan" adı ilə çap olunmuşdur

Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənabları dərs əsnasında tələbələrinin bütün suallarına kamil şəkildə səbrlə qulaq asır sonra isə onları cavablandırır. Fəal və çalışqan tələbələrini həməşə öz diqqət mərkəzində saxlayır və hörmətlə onlara .yanaşır

Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənabları "Fiqh və Üsul" dərslərinin əsnasında tarix, təfsir, rical və digər mövzulara aid olan mətləbləri kamil şəkildə tələbələr üçün .şərh edir. Bu da onun yüksək elmə malik olmasını göstərir

## (Mərcəiyyəti (Elmi məqamı

Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənabları Qum elmi hövzəsində elm, təqva və fəqihliydə məşhur şəxsiyyətlərdən biridir. Digər Mərcəi-təqlid müçtəhidlərin dövründə çoxları ümüdlərini ona bağlamışdılar. Mərcəi-təqlid müçtəhidlər dünyalarını dəyişəndən sonra (Allah onlara rəhmət etsin) mömin və dindar şəxslər xüsusi ilə də Mazandaran və Gilan camaatı ondan "İzahlı şəriət hökmləri" adlı kitab istəyirlər. O, qəməri tarixi ilə ۱۴۱۲-ci ildə öz şəri fətvalarını müsəlmanların ixtiyarında qoydu. Onun "İzahlı şəriət hökmləri" adlı kitabı Ərəb və Ordu dillərinə tərcümə olunub. Hal-hazırda İran və xarici ölkələrdə onun çoxlu müqəllidləri vardır. Qum elmi hövzəsinin tələbələrinin aylıq təqaüdlərinin bir hissəsi Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənabları tərəfindən ödənilir.

## Əsərləri

Əziz ustadımız Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənabları Fiqh və Üsul elminin tədrisindən (yüzlərlə dərslik kasetləri hal-hazırda möcuddur), təbliğ və islam dinini yaymaqdan, tələbə yetişdirməkdən əlavə Fiqh, Üsul, Hədis və Rical elimlərində .kitablar yazmışdır. Burada onlardan bir neçəsinin adını qeyd edirik

## Çap olunmuş əsərləri

.Tozihul-məsail.(١) Ordu dilinə də tərcümə olunub-١

(Əvcibətul-məsail və ya Pasox be cədidtərin isteftaat.(٢-٢

(Mənasike həcc.(٣-٣

.Minhacus-salehin.(۴) Ərəb dilindədir-۴

(Minhacul-nasikin(۵-۵

.Nurul huda. Ürvətül-vüsqaya təliqə yazıb-۶

.Əl-mənazirul-nazirə fi əhkamil-itrətil-tahirə-٧



---

.İzahlı şəriət hökmləri -١
.Yeni suallara cavablar -٢
.Həcc əməllərinin izahı -٣
.İzahlı şəriə hökmləridir, ərəb dilində yazılıb -۴
.Həcc əməllərinin izahı, ərəb dilində yazılıb -۵

۸- Təliqə bər Təhrirul-vəsilə.(۱)

۹- Golçini əz ənvare əxlaqi.(۲)

۱۰- Rəhe tuşeye parsayan, əxlaqe ənvari.(۳)

۱۱- Tohid əz didgahe elm.(۴)

## Çap olunmamış əsərləri

۱- Əl-mənazirul-nazirə, geniş şəkildə təharət, səlat və zəkat kitablarının şərhi.

۲- Ləalil-üsul. On ciliddən ibarətdir. Ləfz bölməsindən başlayır istishab bölməsinə qədər.

۳- Zubdətul-ləali. Yuxarıda qeyd etdiyimiz kitabın xülasəsidir.

۴- Əl-qəvaidul-fiqhiyyə. (Ziman, La zərər, Təqiyyə, Ədalət, Məysur və Əsalətus-sihhə qaydaları bəhs edilir).

۵- Risale dər furue elme icmali.

۶- Risale dər təadol və təracih.

۷- Risale dər ictihad və təqlid.

۸- Təqrirate dərse fiqhe Ayətullah əl-üzma Burucerdi (təharət və qəza bəhsləri).

səh: ۲۶

---

۱- Təhrirul-vəsiləyə təliqə yazıbdır.

۲- Üçüncü günlər tədris etdiyi əxlaq dərslərindən seçilmiş mövzulardır.

۳- Həzrət Peyğəmbərin (s) Əbuzərə etdiyi vəsiyyətlərin şərhidir.

۴- Tohid haqda etdiyi söhbətlər.

۹-Təqrirate Ayətullah Mühəqqiq Damad (səlat və həcc bəhsləri).

۱۰-Təqrirate dərse fiqhe Ayətullh hacı şeyx Abbasəli Şahrudi (təharət kitabı).

۱۱-Təqrirate dərse fiqhe Ayətullah Əraki (cümə namazının bəhsləri).

۱۲-Təqrirate dərse fiqhe Ayətullah hacı Mürtəza Hairi (təharət və xüms kitabları).

۱۳-Təqrirate dərse üsule Ayətullah əl-üzma imam Xumeyni. (Müqəddimeyi vacib bəhsindən başlayır qət və zənn bəhsinin sonuna qədər).

۱۴-Təqrirate dərse üsule Ayətullah Muhəqqiq Damad. (Üsul elmini kamil şəkildə təqrir etmişdir).

۱۵-Təliqə bər vəsilətun-nicat.

۱۶-Təliqə bər minhacus-salehin.

۱۷-Kəşful-ğaşiyə ən vəchil-haşiyə. (Molla Abdullahın Muşkilate haşiye adlı kitabını şərh etmişdir. Bu, əziz ustadımızın ilk əsəridir).

۱۸-Nurul-bəyan fi təfsiril-Quran.

۱۹-Təbəqatul-rical.

۲۰-Rəhe tuşeye parsayan, ənvare əxlaqi. (Həzrət peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) Əmirəl-mömininə (ələyhis-səlam) və Abdullah ibni Məsuda etdiyi vəsiyyətlərin şərhi).

### İctimai xidmətləri

Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənabları umumi camaatın istifadəsi üçün bir neçə xeyriyyə mərkəzinin bünövrəsini qoymuşdur. Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənabları imkansız şəxslərə xidmət və kömək etməkdə çox çalışır. O, beytul-malın müəyyən bir miqdarını müxtəlif yerlərdə məscid, hüseyniyyə, tib məntəqələri və xeyriyyə fondları üçün binalar tikməyə sərf edir. Gorganın Came məscidini təmir edib. Gorgan və onun ətraf kəndlərində bir neçə məscid təsis və təmir edib. Məscide Əzəm adlı bir məscid tikib.(١) Ələng kəndində Ayətullah hacı seyid Səccad Ələvinin adına bir polikilinika açıb. Semnan şəhərinin mərkəzində Seyyidüş-şühəda hüseyniyyəsini tikib. .Tehranın hifdəh şəhrivəre cənubi məntəqəsində xeyriyyə fondu açmışdır



---

.Bu misilsiz olan böyük məscid şəmsi tarixi ilə ١٣٥٠-ci ildə təsis olunmuşdur -١

Həmçinin Ayətullah əl-üzma seyid Ələvi Qorqani cənablarının dəftərxanası Qum və Məşhəd şəhərlərində fəaliyyət göstərir. Əimmeye-ətharın təvəllüdü, vəfatı eləcədə hər həftənin dördüncü günləri şiə məzhəbinin təbliği, genişlənməsi və həzrət Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) və Əhli-beytinin (ələyhumus-səlam) .tanınmaları üçün məclislər keçirilir. Bu məclislərdə görkəmli alimlər moizə edirlər

Sonda Allah-taaladan bu böyük fəqih və alim üçün can sağlığı və xeyriyyə işlərinin .davam etdirilməsində tofiqatını artırmasını diləyirik

Aminə rəbbəl-aləmin

səh: ۲۹

## Mündəricat

Ön söz. ۵

Alimlərin fəzilətləri haqda bir neçə ayə və hədis. ۷

Ailəsi və əsl nəcabəti ۹

Təvəllüdü. ۱۴

Düzgün yuxu. ۱۴

Təhsil dövrü. ۱۵

Ustadları ۱۷

Tədrisi ۱۸

Dini təbliğləri ۲۰

Tədris üslubu. ۲۲

Mərcəiyyəti (Elmi məqamı) ۲۴

Əsərləri ۲۵

Çap olunmuş əsərləri ۲۵

Çap olunmamış əsərləri ۲۶

İctimai xidmətləri ۲۸

Mündəricat ۳۰

səh: ۳۰

## Haqqında mərkəzi

Allahın adı ilə

Rəhman və Rəhimli olan Allahın adı ilə.Və bütün həmdlər aləmlərin rəbbi olan Allaha .məxsusdur

.Varlıq aləminin Kövsəri olan Həzrəti Fatiməyi Zəhraya (a) təqdim olunur

(Bilən kimsələrlə (alimlər) bilməyənlər (cahillər) eynidirlərmi? (Zümər surəsi, ayə ٩

:Ön söz

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi ٢٠٠۶-cı ildən Mərhum Ayətullah Seyyid Həsən Fəqih İmaminin nəzarəti altında,elmi mərkəzlərdə tanınan görkəmli tələbələrin vasitəsi ilə məzhəb,mədəniyyət və elmi sahələrdə öz fəaliyyətinə .başlamışdır

:Məramnamə

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi təhqiqatçıların dini biliklərə rahət və tez bir zamanda yiyələnmələri üçün hər bir xidməti onların ixtiyarında qərar vermişdir.Və bu sahədə təəssübkeşlikdən,ictimai,siyasi,fərdi cəryanlardan uzaq duraraq yalnız və yalnız elmi sahədə ixlasla öz xidmətini həyata keçirməkdədir.Bu səbəbdən adı çəkilən müəssisə layihəsini həyata keçirmiş.Və tədqiqat üçün nəzərdə tutulmuş kitabları,məqalələri mütəxəssislər və müxtəlif təbəqələrdən olan insanlar üçün,bir neçə dillərdə və formalarda hazırlayaraq,heç bir məbləğ tələb etmədən sosial .medyada istifadəçilərin ixtiyarında qoymuşdur

:Hədəflər

Quran və Əhli beyt mədəniyyətini və maarifini yaymaq.١

İnsanları,xüsusən gəncləri tam dəqiq şəkildə dini məsələləri araşdırmağa.٢ sövqləndirmək

Telefon,tablet və kompüterlərdə olan faydasız,yararsız mövzuların yerini .٣ faydalı,mənəviyyatlı mövzularla doldurmaq

.Təhqiqatla məşğul olan tələbələrə xidmət etmək.۴

.Kitab və elmi əsərlər oxumaq mədəniyyətini yaymaq.۵

.Müəlliflərin öz elmi əsərlərini digital formada yaymaq üçün onlara şərait yaratmaq.۶

:İcraçılıq

.Qanunla icazəli olan lisenziyaya malik əsərlərin yayımı.١

.Bu mərkəz kimi xidmət göstərən oxşar mərkəzlərlə əlaqə.۲

.(Paralel xidmətlərdən çəkinmək (başqalarının etdiklərini təkrarlamamaq.۳

.Yalnız və yalnız elmi məsələləri yaymaq.۴

.Nəşriyyatın mənbələrini qeyd etmək.۵

.Qeyd:Kitabda olanlara görə məsüliyyət o kitabı yazan müəllifin öhdəsindədir

:Müəssisənin fəaliyyəti

.Kitabların çapı və nəşri.۱

.Kitab oxumaq müsabiqələrinin təşkili.۲

.Məcazi sərgilərin istehsalı.۳

.Kompüter oyunlarının istehsalı.۴

Qaimiyyə internet saytının yaradılması:www.ghaemiyeh.com.۵

.Sərgi məhsullarının və moizələrin istehsalı.۶

.Şər'i,əxlaqi və etiqadi suallara cavab.۷

.Mühasibat,mətbuat yaratmaq və sms… sistemlərinin layihəsi.۸

.Təlim kurslarının həyata keçirilməsi.۹

Tərbiyəçi şəxslər hazırlamaq üçün təlim kurslarının təşkili.۱۰

Kompüterdə,tabletdə və telefonlarda icrası mümkün olan minlərlə proqramların.۱۱ dünyada məşhur olan səkkiz formada istehsalı

JAVA.۱

ANDROID.۲

EPUB.۳

CHM.۴

PDF.۵

HTML.۶

CHM.۷

GHB.۸

.v.Qaimiyyə kitab bazarı adına dörd market

ANDROID.۱

IOS.۲

WINDOWS PHONE.۳

WINDOWS.۴

deyilənlər müəssisənin veb saytında Fars,Ərəb,İngilis və Azərbaycan dillərində pulsuz

.istifadəyə verilmişdir

:Sonunda

Mərcəi təqlid müctəhidlərin dəftərxanalarından (ofis),müəssisələrdən,nəşriyyatçılardan,müəlliflərdən və əməyi olan bütün şəxsiyyətlərdən bizlərə hədəfə çatmaqdan ötrü yardım etdikləri üçün səmimi qəlbdən .təşəkkür edirik


:Mərkəzin ünvanı

İsfahan-Əbdurrəzzaq küçəsi-Hacı Muhəmməd Cəfər adına bazar-Şəhid Muhəmməd Həsən Təvəkküli küçəsi-blok۱۲۹/۳۴-birinci mərtəbə

veb sayt:www.ghbook.ir

mail:Info@ghbook.ir

mərkəzin ofis telefonu: ۰۰۹۸۳۱۳۴۴۹۰۱۲۵

Tehran ofisi: ۰۰۹۸۲۱۸۸۳۱۸۷۲۲

Biznes və alqı satqı: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹

Mərkəzdə çalışan insanlarla əlaqə yaratmaq üçün nəzərdə tutulan nömrə: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹


İsfəhan Qaimiyyə kompüter
araşdırmalar mərkəzi
Qaimiyyə
www
Başqa kitabxanaya sahiblənmək üçün
gördüyünüz sayt mərkəzinə müraciət
etməniz lazımdı:
www.Ghaemiyeh.com
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.ir
Və sifariş üçün bizimlə əlaqə saxlayın:
(0098) 0913 2000 109